**“Təsdiq edirəm”**
**Azərbaycan Respublikasının**
**Energetika Naziri**

**________________N. Əliyev**
**“___”___________2014-cü il**

**Azərbaycan Respublikası Energetika Nazirliyinin**
**Lisenziya və xüsusi icazələr şöbəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2014-cü il tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”yə və digər qanunvericilik aktlarına müvafiq olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Energetika Nazirliyinin (bundan sonra – Nazirlik) Lisenziya və xüsusi icazələr şöbəsinin (bundan sonra – şöbə) fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını və işçilərinin məsuliyyətini müəyyən edir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin Əsasnaməsini, Nazirliyin qərar, əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları, Nazirliyin aparatının struktur bölmələri, Nazirliyin strukturuna daxil olan idarələr, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi və fiziki şəxslər, o cümlədən yanacaq-energetika sahəsində fəaliyyət göstərən dövlət müəssisələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.0. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında” Qaydalara uyğun

olaraq neft və qaz məhsullarının satışına xüsusi razılıq (lisenziya) verilməsi, “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 167 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İxrac nəzarəti haqqında Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə” 15 dekabr 2005-ci il tarixli 230 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq ixrac nəzarətinə düşən malların idxalına, ixracına və tranzitinə xüsusi icazə verilməsi, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə xüsusi icazə verilməsi” Qaydalarına uyğun olaraq xüsusi icazə verilməsi və 2 fevral 2009-cu il tarixli “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında” Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş hallarda şəhadətnamə verilməsi ilə əlaqədar fəaliyyətləri həyata keçirir;

2.0.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi konkret sahələr üzrə elektron xidmətlərin göstərilməsində iştirak edir.

## 3. Şöbənin vəzifələri

3.0. Şöbə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. lisenziyaların və xüsusi icazələrin verilməsinə dair Azərbaycan Respublikasının qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının və Nazirliyin hüquqi aktlarının tələblərini yerinə yetirir;

3.0.2 Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına uyğun olaraq lisenziya və xüsusi icazələrin tələblərinə və şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirir;

3.0.3. şöbənin fəaliyyət istiqamətlərinə aid olan məsələlər üzrə fiziki və hüquqi şəxslərdən daxil olan müraciətlərə və sorğulara baxır, daxil olmuş müraciətlərə və sorğulara vaxtında cavab verir;

3.0.4. Nazirlik tərəfindən verilmiş, qeydə alınmış, dayandırılmış, bərpa edilmiş və ləğv edilmiş lisenziyaların və xüsusi icazələrin reyestrini aparır;

3.0.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirir;

3.0.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi konkret sahələr üzrə elektron xidmətlərin göstərilməsi ilə əlaqədar fəaliyyəti həyata keçirir.

3.0.7. Nazirliyin hüquqi aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

## 4. Şöbənin hüquqları

4.0. Şöbə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Nazirliyin rəhbərliyinin razılığı ilə digər şöbələrin əməkdaşlarını şöbə tərəfindən keçirilən tədbirlərə cəlb etmək;

4.0.2. lisenziya və xüsusi icazələrin tələblərinin və şərtlərinin yerinə yetirilməməsinə görə verilmiş lisenziyaların və xüsusi icazələrin fəaliyyətlərinin dayandırılması və ya ləğv olunması barədə nazirliyin rəhbərliyinə təklif vermək;

4.0.3. yanacaq-energetika sahəsi üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.4. şöbənin əməkdaşları tərəfindən aşkar edilmiş çatışmazlıqlar və hüquq pozuntuları haqqında sənədləri tədbir görülməsi üçün aidiyyəti icra hakimiyyəti və hüquq mühafizə orqanlarına göndərilməsi barədə Nazirliyin rəhbərliyinə təklif vermək;

4.0.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.6. Nazirliyin hüquqi aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbə Azərbaycan Respublikasının energetika nazirinin (bundan sonra – nazir) əmri ilə yaradılır və ləğv edilir. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir.

5.2. Şöbəyə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır. Şöbə müdirinin müavini şöbə müdiri tərəfindən ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada müdir müavini həyata keçirir.

5.5. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad edilirlər.

5.6. Şöbə müdiri aşağıdakı səlahiyyətlərə malikdir:

5.6.1. şöbənin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir;

5.6.2. şöbənin işini təşkil edir, şöbənin əməkdaşları arasında iş bölgüsü aparır, şöbənin əməkdaşlarına göstəriş və tapşırıqlar verir;

5.6.3. şöbənin səlahiyyətlərinə aid olan məsələlər üzrə şöbənin əməkdaşları barəsində həvəsləndirmə və ya intizam tənbehi tədbirləri görülməsi barədə nazirə təqdimat verir;

5.6.4. işçilərin ixtisasının artırılması və əmək şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirlər həyata keçirir;

5.6.5. şöbənin əməkdaşları tərəfindən öz vəzifələrini düzgün yerinə yetirilməsinə, əmək və icra intizamına riayət olunmasına nəzarət edir.

## 6. Məsuliyyət

Şöbənin əməkdaşları onlar tərəfindən hazırlanan sənədlərin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmasına və onlara tapşırılmış işlərin vaxtında yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.